**Cavanşir Hacı oğlu HACIYEV**
Qərbi Kaspi Universiteti,İqtisadiyyat və Biznes məktəbi fakültəsi,
iqtisad elmləri namizədi, dosent.
E-mail: cavanshir.hacılıyev@wcu.edu.az

# VERGİ QANUNVERİCİLİYİNƏ EDİLMİŞ DƏYİŞİKLİKLƏRİN SAHİBKARLIĞA DƏSTƏYİ VƏ İQTİSADİ ARTIMI SÜRƏTLƏNDİRMƏSİ

**Xülasə**

2023-c il Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişiklər cənab prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbacanda həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan Vergi siyasətinin daim iqtisadiyyatın dəyişən tələblərinə, onun artım gücünə adekvat olaraq təkmilləşdirilməsidir. Müasir Vergi siyasətinin bu tələblərə uyğun qurulması,vergi inzibatçılığının tətbiqi zamanı vergi ödəyicilərilə dövlət arasında yeni münasibətlərin formalaşmasına gətirib çıxarır.

Ölkəmizdə bir çox sahələrdə vergi pozuntuları, xüsusilə uçotun düzgün aparılmaması, qeyri- rəsmi məşğulluğun mövcudluğu dövriyyələrin azaldılması kimi hallara rast gəlinir. Vergi sistemində aparılan iqtisadi islahatların fəlsəfəsi vergi orqanlarının əsas funksiyalarının fiskal nəzarətindən vergi ödəyicilərinə xidmət prinsipinə keçirilməsindən işarətdir.

**Açar sözlər**: sosial-iqtisadi, vergi güzəşti, əmək haqqı, sadələşdirilmiş vergi, dividend, mikrosahibkarlıq.

**UOT:336**
**JEL: H24**
**DOI:** https://doi.org 10/54414/IXVF6326

**Giriş**

Bu il vergi qanunvericiliyinə edilmiş 100-ə yaxın əlavə və dəyişiklər əsasən güzəşt və azadolmalarla bağlıdır. Vergi orqanları kölgə iqtisadiyyatının səviyyəsinin azaldılmasını, şəffaflığın və hesabatlılığın təmin edilməsini, vergi yükünün aşağı salınmasını aparılan islahatların başlıca məqsədi hesab edirlər.

Bu ilki dəyişikliklərin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

1.Ölkədə investisiya mühitinin, o cümlədən yerli istehsalın təşviq edilməsi;

2.Ləğv prosesində olan bankların sabit vergi xərclərinin azaldılması;

3.Vergi inzibatçılığında bir sıra və bir neçə məsələlərin tənzimlənməsi, eyni zamanda təkmilləşdirilməsi;

4.Əhalinin vergi və maliyyə yükünün sosial xarakterli güzəştlərlə aşağı salınması və azaldılması;

5.Ölkəmizin beynəlxalq reytinqlərdə olan reytinqinin artırılması və qorunmasından ibarətdir;

Ölkəmizin başçısı möhtərəm İlham Əliyevin sərəncamına əsasən işğaldan azad olunan ərazilərdə fəaliyyət göstərən sahibkarlara vergi və gömrük güzəştlərinin 10 il müddətinə verilməsi aparılan dəyişikliklərin əsasını təşkil edir.

Məlumdur ki, ötən il vergi məcəlləsinə edilmiş dəyişikliklər əsasən sahibkarlığın dəstəklənməsindən, vergidən yayınmanın və "kölgə iqtisadiyyat"ının miqyasının azaldılmasından, vergitutma bazasının genişləndirilməsindən, vergi inzibatçılığının təkmilləşdirilməsindən, vergi orqanı əməkdaşları ilə vergi ödəyiciləri arasında ünsiyyətin minimum endirilməsindən, mövcud və yeni veriləcək vergi güzəştlərinin səmərəliyinin yüksəldilməsindən ibarət olmuşdur.

**Əsas mətn**

Vergi qanunvericiliyində mühüm dəyişikliklərdən biri kimi,bu ildən vergidən yayınma məqsədilə xarici ölkələrin rezidentləri və rezidenti olmayan şəxslər tərəfindən güzəştlərdən qeyri-qanuni istifadə olunması beynəlxalq müqavilənin şərtlərinin əksinə olaraq Vergi Məcəlləsinin müddəaları tətbiq olunacaqdır.Bu ildən qeyri-rezidentin xalis mənfəətindən (daimi nümayəndəliklə

bağlı gəlirlərindən) qeyri-rezidentə köçürülən məbləğdən tutulan 10% ləğv olunmuşdur.Belə ki,qeyri-rezidentin daimi nümayəndəliyinin xalis mənfəətindən bir dəfə 10 faiz vergi tutulması nəzərdə tutulmuşdur.

Bilirik ki, malın, işin, xidmətin tələblə təklifinin nisbəti bazar qiymətini yaradır.Mal mübadiləsində, idxal-ixrac əməliyyatlarında, qarşılıqlı asılı olan şəxslər arasında bazar qiyməti tətbiq olunmaqla vergilər hesablanır.Bu ildən vergi ödəyiciləri tərəfindən sənədlər təqdim edilmədikdə, gəlir və xərclərin uçotu aparılmadığı üçün bazar qiymətləri tətbiq edilməklə vergilər hesablanacaqdır. Transfer qiymətlərlə bağlı dəyişikliyə əsasən qeyri-rezidentlərin daimi nümayəndəliyi Azərbaycan mənbəyindən əldə etdiyi mənfəətin hesablanmasında transfer qiymətlər tətbiq olunmalıdır.

Yeni dəyişikliyə görə bu ildən 7 il müddətinə yerli istehsalı təşviq etmək məqsədilə Nazirlər Kabineti tərəfindən siyahısı təsdiq edilmiş qida məhsullarının istehsalı ilə məşğul olan fərdi sahibkarlar və hüquqi şəxslərin əldə etdikləri gəlirlərin 50%-nin vergidən azad edilməsi əlavə kimi Vergi Məcəlləsinə daxil olmuşdur. Bu qida məhsullarına olan idxaldan asılılığı aradan qaldırılmağa yönəldilmişdir.

Qeyd etməliyik ki, əvvəllər vergi orqanında uçotda olmayan kənd təsərrüfatı məhsullarının istehsalçıları "Nağdsız hesablaşmalar haqqında" qanuna əsasən malların təqdim edilməsindən əldə etdikləri gəlirlərdən xərclər çıxılmadan 5 faiz dərəcə ilə vergi tutulurdu. Hazırda isə kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən istehsal edilmiş kənd təsərrüfatı məhsullarının qeydiyyatda olmayan şəxslər tərəfindən təqdim edilməsi mənfəət vergisindən azad olurlar. Bu birbaşa ölkəmizdə kənd təsərrüfatının inkişafına yönəlmiş mühüm addımdır.

Yeni dəyişikliklərə əsasən kənd təsərrüfatı məhsullarının sənaye üsulu ilə əldə edilməsindən alınan gəlirlər gəlir vergisindən azad olurlar. Eyni zamanda kənd təsərrüfatı istehsalı ilə məşğul olan fiziki şəxslərin satışdan kənar gəlirləri və dövlət tərəfindən verilmiş subsidiyaları gəlir vergisindən azad edilmişdir.Satışdan kənar gəlirlərə istehsal olunmuş kənd təsrrüfatı məhsullarının təqdim olunması zamanı onların dəyərinin müəyyən edilmiş müddətdən gec ödənildiyi halda alıcının əlavə olaraq ödədiyi cəriməridir.Fiziki və hüquqi şəxslər kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olanda onların dividend gəlirləri 1 il müddətinə vergidən azad olurlar.Bu azadolunmalar kənd təsərrüfatının inkişafına yönəldilmiş güzəştlərdəndir.

Vergi yükünün azaldılması məqsədilə şəhid ailələrinə münasibətdə, banklar tərəfindən onların borclarının silinməsi, onların əldə etdikləri gəlirlərin vergidən azad olması nəzərdə tutulmuşdur.

Şəhid ailələrinin muzdlu işdən əldə etdikləri gəlirin 800 manatdan az olan hissəsi vergidən azaddır. İşğaldan azad olunmuş ərazilərdə idxal olunan mallara vergi və gömrük güzəştləri 10 il müddətinə tətbiq olunmuşdur. Həmin ərazilərdə fəaliyyət göstərən sahibkarlara gəlir,mənfəət, əmlak,torpaq vergiləri tətbiq olunmayacaqdır. ƏDV uçotunda olan şəxslərə istehsal məqsədilə idxalda xammal və materiallara ƏDV tətbiq olunmayacaqdır. Qeyd olunmalıdır ki,muzdlu işdən azad olmalara görə şəhid ailəsi statusu verilmiş şəxslərin valideynlərinin.övladlarının muzdlu işdən vergi tutulmalı olan aylıq gəlirindən 200 manat məbləğində azadolma müəyyən edilmişdir.

Dəyişikliklərə görə azadolmalarda fiziki şəxslərlə yanaşı, hüquqi şəxslərin də mikrosahibkarlıq fəaliyyətlərində gəlir və xərclərinin uçotunu aparırsa,30 günədək qaimə-faktura ilə işləyirlərsə, onların gəlirlərinin 75 faizi güzəştə daxil olur.

Yeni qaydalarda mütləq idxal olunan malların aparıldığı yer vergi orqanlarına yazılı məlumat verilməlidir. Orta və iri istehsalda sərf olunan materialın miqdarı müəyyən olunmalıdır. Əsas vəsaitlərin icarəsindən çəkilən xərclər amartizasiya formasında gəlirdən çıxılırdısa, indi 500 manatlıq təmir xərcləri birbaşa gəlirdən çıxılacaqdır. Dəyişikliklərə görə əvvəlki dövrdə vergi ödəyicisinin vergiləri haqqında hesabatı və eyni zamanda sahibkarlıq fəaliyyətinin olmaması haqqında arayışı olmadıqda buna görə 40 manat məbləğində maliyyə sanksiyası nəzərdə tutulurdu. Hazırda isə arayışın verilməsi ləğv edilmiş və yalnız hesabat dövrü üzrə vergi tutulan əməliyyatlar aparan vergi ödəyicisi tərəfindən vergi hesabatının əsas olmadan müəyyən edilən müddətdə təqdim edilməməsinə görə 40 manat maliyyə sanksiyası tətbiq edilir.

Həmçinin transmilli şirkətlər qrupuna daxil olan Azərbaycan Respublikasının rezidenti olan

müəssisələrin müəyyən edilmiş müddətdə, formada, qaydalarda hesabatı təqdim etmədiyi halda, onlara 10.000 manat məbləğində maliyyə sanksiyası tətbiq olunacaqdır.

Dəyişikliyə əsasən vergi ödəyicisi tərəfindən malların dəyəri ödənildiyi gündən 1 gün sonra ƏDV-nin məbləğinin depozit hesabına köçürülməsi nəzərdə tutulur. Halbuki indiyədək hər iki ödəniş həm malın dəyəri ayrıca hesaba, ƏDV isə depozit hesabına eyni gündə ödənilirdi. ƏDV ödənişinin 1 gün gecikdirilməsi vergi ödəyicilərinin xeyrinə atılmış addımdır. ƏDV ödənişinin gecikdirilməsi 50 faiz maliyyə sanksiyasına səbəb olur.

Yeni redaksiyada özəl tibbi profilaktika ilə məşğul olan fiziki şəxslərə münasibətdə "Nağdsız hesablaşmalar haqqında" qanunun tələblərinə əməl etmədikdə təqvim ili ərzində belə hala birinci dəfə yol verildikdə 10 faiz, ikinci dəfə 20 faiz, üç və daha çox dəfə yol verildikdə 40 faiz miqdarında maliyyə sanksiyası tətbiq olunacaqdır. Həmçinin ödənişlərin nağdsız qaydada nəzarət kassa aparatı vasitəsilə aparılması qanuni qüvvəyə minmişdir.

Dəyişikliyə görə əvvəlki redaksiyada göstərilən banklar tərəfindən şəhadətnamə-dublikat olmadan vergi ödəyicilərinə hesab açmağa görə hər açılmış hesaba üzrə 400 manat məbləğində maliyyə sanksiyası nəzərdə tutulurdu. Belə ki,əvvəl hesab açmaq üçün vergi orqanına müraciət olunurdu, sonradan vergi orqanının verdiyi şəhadətnamə-dublikat əsasında hesab açılırdı. Artıq vergi ödəyicisi şəhadətnamə-dublikat açmalı olmayacaqdır. Belə ki,vergi ödəyiciləri birbaşa banklara müraciət edəcək və banklar vergi ödəyicisənə hesab açmaqla,açılan hər bir hesab üzrə vergi orqanına 1 iş günü müddətində elektron qaydada mlumat göndərməlidirlər. Əgər banklar 1 iş günü ərzində vergi orqanına açdıqları hesablar barəsində məlumat təqdim etməsələr onlara

100 manat maliyyə sanksiyası tətbiq olunacaqdır.

Muzdlu işlə əlaqədar azadolmalarda 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində həlak olmuş şəxslərin valideynləri, arvadları, övladları bu ildən muzdlu işdən əldə etdikləri gəlirləri 100 manat məbləğində azaldılır.

Yeni dəyişikliyə görə ƏDV-nin bu ildən pərakəndə satışda istehlakçıya geri qaytarılması nağd hesablaşmalarda 5 faizlə, nağdsız ödənişlərdə isə 17.5 faizlə alacaqdır.

Yeni qaydalara görə yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri eyni zamanda Beynəlxalq yarışlarda pul şəklində alınan mükafatın 4000 manatadək, respublika yarışlarında alınan mükafatların 200 manatadək dəyəri vergidən azad olunur. Bilmək lazımdır ki, buraya idman yarışları aid edilmir.

Gəlir vergisinə edilmiş əlavələrdən biridə ölkə daxilində və xaricində istifadəyə buraxılmış səhm və istiqrazlardan əldə olunan gəlirlərin 2023-cü il fevralın 1-də hüquqi şəxslərə münasibətdə onların əldə etdiyi faiz gəlirləri 5 il müddətinə vergidən azad olurlar.

**Nəticə**

Ölkə başçısı möhtərəm İlham Əliyevin sərəncamına əsasən işğaldan azad olan ərazilərdə fəaliyyət göstərən sahibkarlara çox mühüm güzəştlər və azadolmalar verilmişdir. Burada əsas istiqamətlərə istehsal və emal,eynin zamanda xidmət infrastrukturunun yaradılması,bu sahələrdə iqtisadi və əmək resurslarının səmərəli istifadə olunması üçün müxtəlif sahələr üzrə,o cümlədən vergi gömrük güzəştlərinin verilməsi,eyni zamanda işğaldan azad olunmuş ərazilərdə istehsal fəaliyyətinin həyata keçirəcək vergi ödəyiciləri üçün ora idxal olunacaq xammal və materialların siyahıya uyğun olaraq vergi və gömrük güzəştləri nəzərdə tutulur.10 il müddətinə mənfəət və gəlir,əmlak və torpaq, sadələşdirilmiş vergilər üzrə azadolmalar nəzərdə tutulmuşdur. Cənab prezidentin bu fərmanı vergi siyasətinin perspektiv istiqamətlərində idxalı əvəzləyən yerli istehsalın təşviq olunması nəzərdə tutulur. Yəni yerli istehsalda xüsusən aqrar sahədə, tikinti sahəsində istifadə olunan idxal mallarının ƏDV-dən azad olunması biznes və investisiya mühitinin yaxşılaşdırılması deməkdir.

Bu ilki dəyişikliklər bazar qiyməti, transfer qiyməti, ölkəmizin beynəlxalq münasibətlərdəki rolu,yerli qida məhsullarının istehsalının artırılması,aqrar sahədəki çoxlu dəyişikliklər, gəlir vergisinə edilmiş güzəşt və azadolmalar, redaktə xarakterli olmaqla fərqlənirlər.

**ƏDƏBİYYƏT SİYAHISI:**

1.Azərbaycan Respublikasının Vergi Məcəlləsi,Bakı 2023-cü il
2.Azərbaycanın vergi xəbərləri
3.Vergilər və vergitutma,dərslik,Bakı 2010-cı il
4.Vergi qəzeti

**Джаваншир Гаджи оглы ГАДЖИЕВ**

## ПОДДЕРЖКА ПРЕДПРИНИМАТЕЛЬСТВА В ИЗМЕНЕНИЯХ НАЛОГОВОГО ЗАКОНОДАТЕЛЬСТВА

**Резюме**

В статье представлена подробная информация о налоговых льготах в современной налоговой системе. Потому что снижение налоговой нагрузки, расширение налоговой базы и, прежде всего, развитие микро- и малого предпринимательства являются одними из приоритетных вопросов. С целью предотвращения теневой экономики в статье изложены: расчет в частном секторе только социальных налогов, снижение ставки упрощенного налога, аннулирование малых и микро дивидендов, ускорение амортизации.

Целю проводимых налоговых реформ, является направление на обеспечение прозрачности в налоговой системе, оправдание взаимного доверия между налогоплательщиками и налоговыми органами. Эти реформы требуют у налогоплательщиков законный подход к своим обязательствам. Прозрачность является не только деятельностью налоговых органов, а также он должен охватывать правильное отношение к своим обязательствам. Каждый дисциплинарный налогоплательщик, выплачивающий налоги в полном объеме и своевременно, будет надежным партнером налоговых органов

**Ключевые слова:** социально-экономический, налоговая льгота, заработная плата, упрощенный налог, дивиденд, микропредприниматель

**Javanshir Haji HAJİYEV**

## SUPPORTİNG ENTREPRENEURSHİP İN TAX LAW CHANGES

**Abstract**

The detailed information on tax exemptions made in modern tax system was given ın this article, Because, decrease of tax load, enlarge of taxation base and the most important development of micro and junior ownership are the main part of priority questions. Preventing of shadow economy, calculation of only social taxes in private sector, decrease of level of simplified tax degree, abrogation of micro and little business dividends and speed of amortization were detailed described in this article.

The goal of tax reforms carrying out is directed to the ensuring of transparency in the tax system and to increase of mutual confidence between the taxpayers and tax bodies. These reforms request from the taxpayers to deed with own obligations based to the law. Transparency is not only activity of the tax departments, is also correct follow of tax payers to their obligations. Each disciplined tax payer who pays date to date and completely will be reliable partner of the tax departments.

**Keywords:** socio-economic, tax rebate, wages, simplified tax, dividend, microentrepreneur

**Daxil olub:** 15.02.2023